# “Ucqar kəndlərdə kitabxanalarında heç 2 min kitab yoxdur”

**“Ucqar kəndlərdə kitabxanaların və orada 20 min kitab fondunun olduğu deyilir, amma baxırsan ki, heç 2 min kitab yoxdur. Kənddə yaşayan əhalinin həmin kitabları oxuyub-oxumaması sualına cavab tapmaq lazımdır. Mədəniyyət müəssisələrində çalışan və büdcədən əmək haqqı alan 30 min işçinin hamısı yerlərdədir. Onlar Azərbaycan mədəniyyətlərinə töhfə verə bilirmi? Xeyr. Bunu da hamı bilir”.**



Bunu mədəniyyət nazirinin birinci müavini, nazir vəzifəsini müvəqqəti icra edən Adil Kərimli Milli Məclisdə “Qeyri-maddi mədəni irs haqqında” qanun layihəsinin müzakirəsi zamanı deyib.

Onun sözlərinə görə, bu sahədə ciddi işlərin görülməsi önəmlidir: “Bəlkə bu yükü azaldıb mədəniyyətin zəruri olan sferasına yönəldə bilərik. Mətbuatda da haqlı olaraq qeyd olunur ki, tarixi mədəni abidələrimiz təhlükədədir. Bu gün 6308 tarixi mədəni abidəmizin 4000-ə yaxını məhz nazirliyin nəzarətindədir. Təbii ki, həmin abidələrə mütəmadi şəkildə investisiya ayrılır. Bu gün 700-800 tarixi mədəniyyət abidəsi məhz işğaldan azad olunmuş ərazilərdə qeydiyyata alınıb və proses davam edir. Onların bərpasına da ciddi ehtiyac var. Hamı düşünür ki, bu işlərin hamısını Mədəniyyət Nazirliyi həll etməlidir”.

Adil Kərimli qeyd edib ki, abidələri qorumaq üçün sanki vətəndaşların öhdəliyi yoxdur: “Onları qınamaq da olmaz, bəlkə də maarifləndirmə işləri düzgün aparılmayıb. Tarixi abidə sayılan binalarda mənzil olan şəxslər məsuliyyət hiss etməlidir ki, dövlət hər zaman bunu qoruya bilməz”.

Adil Kərimli Mədəniyyət Nazirliyinin əvvəlki rəhbərliyinin kadr siyasətini də sərt tənqid edib: “Mədəniyyət sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi və formalaşdırılması önəmlidir. Bu çox zəruri və əhəmiyyətli məsələdir. Qısa zaman ərzində mədəniyyət sahəsində mövcud vəziyyətin təhlili ilə məşğul olmuşuq. Artıq təyinatımdan iki ay keçib. Bu müddət ərzində tam şəkildə mədəniyyət sferasında baş verən prosesləri, infrastruktur, kadr potensialı ilə bağlı təhlil mərhələsindən keçməkdəyik. Problemlərlə daha yaxından tanış oluruq. İnstisional səviyyədə problemləri gördükcə bu sahədə çoxlu qüsurların mövcud olduğunun şahidi oluruq. Mədəniyyət sahəsinə hökumət tərəfindən hər zaman xüsusi diqqət və qayğı var".

Adil Kərimli söyləyib ki, hər hansı səbəbdən kadr yanaşmaları fərqli istiqamətdə olub. Onun sözlərinə görə, xüsusilə də burada subyektiv səbəblər çoxdur: "Bu sahədə geniş müzakirələrə ehtiyac var. Qeyri-maddi mədəni irs sahəsi tək Mədəniyyət Nazirliyinin sahəsi deyil. Problem ondan ibarətdir ki, cəmiyyətin bu sahəni ayrı və fərqli kateqoriya kimi kənardan müşahidə etmək yanaşması var. Amma bu bizim bəlamızdır. Cəmiyyətin hər bir üzvünün əsas istəyi məhz mədəniyyət sahəsinin inkişafı olmalıdır. Aidiyyəti şəxsləri bu işə cəlb etməsək bu prosesdə hər hansı uğurun qazanılmasından və irəliləməsindən söhbət aça bilmərik".

**Xalq cəbhəsi.- 2023- cü il.- 2 mart.- S. 16.**